**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№323/3** **10 noyabr 2020-ci il**

**“Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait”in layihəsinin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş Planının 1.2-ci “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması” bəndinə uyğun olaraq hazırlanmış plan-proqramın 5-ci “Beynəlxalq təcrübə nəzərə alınmaqla kölgə iqtisadiyyatının qiymətləndirilməsi üzrə metodoloji əsasnamənin hazırlanması və tətbiqi” bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının sədri, professor V.Novruzovun rəhbərliyi ilə Palata sədrinin elmi-metodik məsələləri üzrə müşaviri N.Talıbov və Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisi Q.Əhmədov tərəfindən hazırlanmış “Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait” bəyənilsin (əlavə olunur).

2. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki:

2.1. “Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait”in xidməti istifadə üçün aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin;

2.2. Bu qərarın və “Kölgə iqtisadiyyatının həcminin ölçülməsi üzrə metodik vəsait”in mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**